# QƏLƏM GÜCÜ

*Gedir dərgahına hər bir yol, Tanrım!*
*Sonu görünməyən sirdir yol, Tanrım!*
*Sənə minnətdaram. çox sağ ol, Tanrım!*
*Mən altmış yaşıma gəlib yetişdim!*

**Vaqif İsaqoğlu**

And olsun qələmə...

İlk yazı mən biləni daşa qazılıb. Avesta Zərdüşt düşüncələrinin dəri üzərinə köçürülməsidir... Və sonra yazı əbədiyyət uğrunda dəyişə-dəyişə, yenilənə-yenilənə zaman boyu yol gəlib. Bəlkə də qələmə yetəndə, kağıza çatanda nəfəs dərib. Qələm və kağız düşüncənin işıqlığa çıxmasında əsas vasitə olub. Və bu gün artıq qələm və kağız da az qala keçirilmiş bir mərhələdir. Vaqif İsaqoğlu haqqında beş-üç kəlməlik düşüncələrimi yazıya köçürmək üçün qələmə üz tutmağım təsadüfi deyil. Axı Vaqif İsaqoğlu qələm adamıdır. Doğrudur, gəncliyinin və cavanlığının yarısınacan ömrünü Azərbaycan ordusuna xidmətdə keçirib. «Ordu» qəzetində çalışıb və bu gün yaşının indiki çağında ruhunu diri saxlamasının bir səbəbi də elə onun döyüşçü aləmi ilə bağlılığından, xaraktercə döyüşdə özünü tapmasından irəli gəlir.

Həyat onsuz da müharibədir və döyüşdür. Ziyalı zəkasında isə döyüş rənglərin savaşıdır - xeyirlə şərin döyüşüdür. Vaqif özünü anlayandan bəri söz uğrunda savaşdadır. Söz isə onun həqiqət tapınacağıdır. Uzun illər öncə onun bir «O» adlı essesini oxumuşdum.

O kimdir... Bu o kəsdir ki, təbiətini fəsillərə uyğun dəyişə bilir, cəmiyyətin siyasi mühitinə uyğun rənglər alır. Vaqif isə saf və sağlam əqidə kimi görmək istədiyi «O»nu artıq faciə qəhrəmanı kimi təsvir edir, amma Vaqif İsaqoğlu təkcə o ilə qurtarmır. Onun konkret adlı, ünvanlı obrazları da az deyil. «Qurban Pirimov», «İsmayıl Osmanlı», «Ağababa Bünyadzadə», «Nizami ucalığı» və s. kitablarında cəmiyyət üçün həyat qoymuş, cəmiyyət üçün enerji mənbəyi olmuş insanları portret əsərlərlə yenidən cəmiyyətə qaytarır, cəmiyyətlə cəmiyyətin sərvəti olan xarakterlər arasında körpü yaradır. Vaqif İsaqoğlu Tovuzun Köhnəqala kəndində doğulub böyüyüb. Mühiti, keçdiyi yol ona zəngin həyat dərsləri bəxş edib. Həyati müşahidələr, ömürdən yığdıqları 70-dən çox kitaba paylanıb. Bu kitablarla o, əslində, həm də özünü yaradıb.

Vaqif hər kitabında - mən deyərdim ki, hər yazısında ruhunun alt qatından gələn bir istəklə Tanrı ilə halallaşma istəyirdə olur. Elə bil ki, Tanrıya demək istəyir ki, bu dünya ilə mən belə dolandım. Məndən qeyrilər bu dünya ilə necə dolanacaq? Daha bu, mənlik deyil. Qoy hər kəs özü Vaqifin özünün halallıq düşüncələrini oxuyub, onun Tanrı ilə dilləşməsini ruhunun gözlərilə görsün: *“Aylar, illər ötdü. Bir də baxıb gördüm ki, yaş altmışdı. İnana bilmirəm ki, yaş altmışdı. Axı, necə inanasan? Yaşanan altmış il keçmişdə qaldı. Keçmiş unudulmur. İnsanın ömrü keçmişdən ibarətdir. Bəli, 60 il ömürdən sayılır. Həyatın enişli-yoxuşlu yollarından keçib 60 yaşa gəlib çatmışam. Bənzərsiz, riyasız, boyasız... bir ömür yaşamışam. Tanrının verdiyi ömür payını necə gəldi yaşamamışam, şərəflə yaşamağa çalışmışam. Elə ona görə də hələ üzüm ağdı Allah yanında.*

*Dünyanın sevinci də, kədəri də insan üçündür. Həyat belədir, həm itirir, həm də qazanırsan. Həyatda uğurlar da, uğursuzluqlar da olur. Uğurlarıma görə öyünməmişəm, uğursuzluqlarıma görə ruhdan düşməmişəm.*

***(Davamı 9-cu səhifədə)***

*(Əvvəli 1-ci səhifədə)*

*Həmişə və hər zaman olduğum kimi görünməyə çalışmışam. Altmışdan o yana nə olajaq, bilmirəm. Birjə onu bilirəm ki, ömrümün payızıdı. Payızdan sonra qış gəlir. Qış - ömrün sonunju fəslidi. İndi üzü yetmişə doğru yol gedirəm. Bu yol harda qırılacaq, harda bitəcək, harda sona çatacaq, bilmirəm. Amma bildiyim odur ki, 60 yaşıma alnıaçıq gəlib çatmışam. Və mənə verilmiş ömürdən əsas müddəti başa vurmuşam.*

*«Ömür bitər, yol bitməz» - deyirlər. Düz də deyirlər. Bu yolda kimin hansı dayanacaqda düşəcəyi heç kimə məlum deyil. Bu, bir sirdi və bu sirri də Allahdan başqa heç kim bilmir?*

*Allah amanında."* Hər bir insanın həyatında yaş şərtidir. "Salam 60 yaşım" deyən şair elə yetmişində də bu salamdan qalmayacaq. Bəlkə, daha ali, bəlkə, daha təmkinli bir üzlə Tanrıya yön tutacaq. Bu günlərdə onun oxucu ünvanına yetmiş "Salam 60 yaşım" adlı kitabı həm də sözlə halallaşma məqamından xəbər verir.

# QƏLƏM GÜCÜ




Vaqif İsaqoğlu şairdir. O, həyata enerji mənbəyi olan, mübarizə üçün ilham verən obrazları ən gözəl epitetlərlə süsləyə bilir.

«Ancaq sənə görə çiçəklər açır,  
Günəş şəfəq saçır, Ay işıq saçır.  
Mələklər Allaha səndən söz açır,  
Dünyanın ən gözəl qadını sənsən».

Paklığın, saflığın obrazı olan qadın bu bir parçada artıq sıradan bir qadın deyil. Bəşərin və bütövlükdə insanlığın güc mənbəyidir.

Vaqif İsaqoğlu dəyərli poemaların, həyatla nəfəs alan publisistikanın, gözəl nəsr əsərlərin, hekayələrin müəllifidir. Xüsusilə onun Qarabağ müharibəsinin tarixi ilə bağlı yazdıqları bir şahid ifadəsi kimi gəcələkdə tutarlı mənbə olacaq qədər dəyərdədir. Vaqif İsaqoğlunun uşaq şeirləri də yeni nəslin zövq sarı tərbiyəsində mühüm əhəmiyyət kəsb edər. Bütün bunlarla yanaşı onun ədəbi tənqid, ədəbiyyatşünaslıq yönümündən araşdırmaları var.

Vaqif İsaqoğlunun yazıçı dili onun publisistik ədəbi-tənqidi yaradıcılığına da sirayət edir. Onun həmişə hərəkətdə olan ruhu sağlam təbiətindən güc alır.

«Balaca Koroğlu» kitabında uşaqların dili ilə necə asanlıqla danışa bilirsə, «Tovuzdan məktublar» publisistik əsərində də həm müasir gəncliklə, həm də gələcəyimizin sahibi olacaq insanlarla səmimi, doğru, dürüst polemika apara bilir.

Vaqif İsaqoğlu həmsöhbətinin gözünə dik baxa bilir. Necə ki, cəmiyyətin, insanların - bütövlükdə həyatın gözünə dik baxa bilir.

And olsun qələmə... Vaqif İsaqoğlu həyatını sözə vermiş sənətkardır.

***Əli Rza XƏLƏFLİ***  
***10.05.2019***